*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 8, 2025*
*Səh. 533-539*

https://doi.org/10.62837/2025.8.533

**UOT № 82-3.512.162**

**AYTAC QAFARZADƏ CEYHUN QIZI**
***Odlar Yurdu Universitetinin doktorantı***
qafarzadeaytac23@gmail.com
**Orcid ID: 0009-0001-8307-1802**

# ANAR YARADICILIĞINDA EKOLOJİ DÜŞÜNCƏ VƏ EKOTURİZM ELEMENTLƏRİ (“AĞ QOÇ, QARA QOÇ” VƏ “OTEL OTAĞI” POVESTLƏRİ ƏSASINDA)

**Xülasə**

***Açar sözlər:*** *Anar yaradıcılığı, ekoloji düşüncə, insan və təbiət münasibətləri, ədəbiyyat və ekologiya, mədəni ekoturizm*

Bu məqalədə görkəmli Azərbaycan yazıçısı Anarın ədəbi yaradıcılığında ekoloji düşüncənin və ekoturizm elementlərinin təzahürü araşdırılır. “Ağ qoç, Qara qoç” və “Otel otağı” povestlərinin təhlili əsasında müasir Azərbaycan nəsrində insan və təbiət münasibətlərinin, ekoloji şüurun

, eləcə də şəhər və təbiət mühitləri arasındakı qarşıdurmanın necə əks olunduğu öyrənilir. Xüsusi diqqət ədəbiyyatın ekoloji düşüncənin formalaşmasında və mədəni ekoturizmin populyarlaşdırılmasında roluna, həmçinin Anarınbədii üslubunun müasir ekoloji diskussiyalar kontekstində aktuallığına yönəldilir.

**Aytaj Gafarzade**

## ECOLOGİCAL THİNKİNG AND ELEMENTS OF ECOTOURİSM İN ANAR’S LİTERARY WORK (BASED ON THE STORİES “THE WHİTE RAM, THE BLACK RAM” AND “THE HOTEL ROOM”)

**Summary**

***Keywords*****:** *Anar`s literary works, ecological thinking, human-nature relationship, literature and ecology, cultural ecoturism*

This article explores the presence of ecological thinking and elements of ecotourism in the literary works of Anar, a prominent Azerbaijani writer. Through an analytical study of his stories “The White Ram, the Black Ram” and “The Hotel Room”, the paper examines how human-nature relationships, environmental awareness, and the contrast between urban and natural spaces are reflected in modern Azerbaijani prose. The role of literature in fostering ecological consciousness and promoting cultural ecotourism is also discussed, highlighting the relevance of Anar’s narrative style to contemporary ecological discourse.

**Айтадж Гафарзаде**

## ЭКОЛОГИЧЕСКОЕ МЫШЛЕНИЕ И ЭЛЕМЕНТЫ ЭКОТУРИЗМА В ТВОРЧЕСТВЕ АНАРА (НА ПРИМЕРЕ ПОВЕСТЕЙ «БЕЛЫЙ БАРАН, ЧЁРНЫЙ БАРАН» И «ГОСТИНИЧНЫЙ НОМЕР»)

**Резюме**

***Ключевые слова:*** *Творчество Анара, экологическое мышление, взаимоотношения человека и природы, литература и экология, культурный экотуризм*

В данной статье рассматривается проявление экологического мышления и элементов экотуризма в литературном творчестве видного азербайджанского писателя Анара. На основе анализа повестей «Белый баран, чёрный баран» и «Гостиничный номер» исследуется, как в современной азербайджанской прозе отражаются отношения между человеком и природой, экологическое сознание, а также противопоставление городской и природной среды. Особое внимание уделяется роли литературы в формировании экологического мышления и популяризации культурного экотуризма, а также актуальности художественного стиля Анара в контексте современных экологических дискуссий.

Görkəmli Azərbaycan yazıçısı, publisist və ictimai xadim Anar müasir ədəbi düşüncənin formalaşmasında mühüm rol oynamış simalardan biridir. Onun yaradıcılığı milli və bəşəri dəyərlərin vəhdətində formalaşaraq, fərd və cəmiyyət, insan və təbiət münasibətləri kimi mühüm mövzulara toxunur. Anarın əsərlərində fəlsəfi-estetik yanaşma ilə bərabər, dövrün ictimai-sosial problemləri də öz əksini tapır. Xüsusilə təbiətə münasibət, urbanizasiya və ekoloji dəyişikliklər kontekstində yazıçının bədii dünyagörüşündə ekoloji düşüncənin izlərini müşahidə etmək mümkündür. Anarın yaradıcılığı özündə həm milli kimlik, həm də bəşəri dəyərləri ehtiva edir. Onun əsərlərində Azərbaycan xalqının tarixindən, mədəniyyətindən, təbiətindən və sosial problemlərindən bəhs edilir. Xüsusilə Qarabağ, onun təbiəti və mədəniyyəti Anarın əsərlərində tez-tez ön plana çıxan mövzulardandır. Bu əsərlərdə təbiət və insanın vəhdəti, milli ruhun qorunması, ekoloji şüurun yüksəldilməsi kimi məsələlər dərin və mənalı şəkildə əks olunur. Bu məqalədə müasir Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindən olan Anarın "Ağ qoç, Qara qoç" və "Otel otağı" povestləri əsasında onun yaradıcılığında ekoloji düşüncə və ekoturizm mövzuları tədqiq olunur. Hər iki əsər Azərbaycan ədəbiyyatında insan və təbiət münasibətlərinin bədii təhlilində mühüm rol oynayır və milli-mədəni dəyərlərlə ekoloji düşüncənin vəhdətini əks etdirir. "Ağ qoç, Qara qoç" povestində utopiya ilə antiutopiya janrları birləşir. Əsərdə mifoloji elementlər və xalqın təbiətə bağlılığı ön plandadır. Anarın "Ağ qoç, Qara qoç" əsəri, bir tərəfdən, utopik cəmiyyət modeli təqdim etməklə, digər tərəfdən, Azərbaycan təbiətinin zənginliyini, milli-mədəni irsinə əsaslanan ekoturizm potensialını və təbiətlə insanın harmoniyasını qabardır.

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 8, 2025*
*Səh. 533-539*

Əsərdə təbiətə münasibət yalnız fon olaraq yox, ideoloji və mənəvi dəyər daşıyıcısı kimi işlənmişdir. Bu əsərdəki yanaşmalar Anarın ümumilikdə təbiətə və mədəni irsə ideoloji-bədii yanaşmasını ortaya qoyur. O, ekologiyanı yalnız fiziki mühit kimi deyil, milli kimliyin və tarixi yaddaşın ayrılmaz hissəsi kimi təqdim edir. Burada təbiət insan həyatının, mədəniyyətinin bir hissəsi kimi təsvir olunur. Əsərdəki simvolizm və bədii obrazlar ekoloji şüurun formalaşmasına töhfə verir.

Əsər qədim bir əfsanəyə əsaslanır və daha çox simvolik-bədii dildə yazılıb. Povestdəki hadisələr real dünya ilə bədii təxəyyülün sərhədində cərəyan edir. Əsərin əsas simvolları olan Ağ qoç və Qara qoç əslində yaxşılıq və pisliyin, nurlu və qaranlıq qüvvələrin təcəssümüdür. Bu iki qüvvə arasında davam edən mübarizə, eyni zamanda, insanın daxilində gedən mənəvi savaşı da ifadə edir. Əsərdə keçmiş zamanlarda yaşamış insanların həyat tərzi, adət-ənənələri, təbiətlə olan vəhdətləri, həmçinin mifoloji dünyagörüşləri ön plandadır. Anar bu əsərlə Azərbaycan xalqının qədim inanclarına və şifahi xalq ədəbiyyatına istinad edərək, müasir insanı öz kökünə qaytarmağa çalışır. "Otel otağı" povestində isə müasir insanın təbiətdən uzaqlaşması, urbanizasiya nəticəsində yaranan mənəvi və ekoloji boşluq nümayiş etdirilir. Povestin qəhrəmanının Şuşa ilə bağlı xatirələri doğma Qarabağ təbiətinə qayıdış arzusunu ifadə etməklə yanaşı, həm də onun milli kimliyə və mənəvi dəyərlərə bağlılığını ön plana çıxarır. Müasir kontekstdə isə Qarabağın, xüsusilə Şuşanın işğaldan azad olunması və bərpası, ekoturizmin inkişafı məsələləri Anarın əsərlərindəki ekoloji və mədəni motivlərlə üst-üstə düşür. Bu da onun yaradıcılığının həm milli-mənəvi, həm də ekoloji aspektdə aktuallığını bir daha sübut edir.

Anarın bu əsərində Şuşa şəhəri, ekoturizm mərkəzi kimi təqdim edilir. Şuşanın ekoturizm mərkəzi kimi təqdim edilməsi, regionun təbii resurslarının və tarixinin qorunub saxlanmasına yönəlmiş bir mesajdır. Bu yalnız təbii gözəlliklərlə zəngin bir bölgənin təsviri deyil, həm də təbiət və mədəniyyətin harmoniyasının simvoludur. Şuşanın səfalı iqlimi, şəfalı bulaqları, həmçinin tarixi və mədəni abidələri ilə bəşəriyyətin mədəni irsini qorumağa xidmət edən bir ekosistem kimi təqdim edilir. Əsərdə bu şəhərin ekoturizm potensialı, həmçinin dünyanın müxtəlif nöqtələrindən gələn turistləri cəlb etməsi vurğulanır. "Son illər Şuşa, doğrudan da, Qafqazın böyük turist mərkəzlərindən birinə çevrilib. Səfalı iqlimi, şəfalı bulaqları, qışda xizək idmanı, ov, alpinizm, tarixi abidələr – dünyanın hər yerindən bura turistləri cəlb edir. Cıdır düzündə, Ərimgəldidə, Topxanada, İsa bulağı meşəsində, Səkili bulağn yanında ucaldılmış beşulduzlu və nisbətən kiçik, xudmani otellər turist tələbatını çətinliklə ödəyir, gərək neçə ay əvvəldən yer rezervasiyası edilsin" [2, səh.9].

"Ağ qoç, qara qoç" əsərində ekoloji maarifləndirmə məsələsi geniş bir mədəni tədbir və təbiətlə bağlı fəaliyyətlər vasitəsilə vurğulanır. Müəllif, Qobustan, Muğan, Gəncə, Naxçıvan kimi yerlərdə keçirilən mədəni və elmi tədbirlər vasitəsilə təbiətə olan münasibətin necə inkişaf etdirildiyini və bu tədbirlərin həm də ekoturizmin inkişafına necə xidmət etdiyini göstərir. Bu cür beynəlxalq tədbirlər, təbii irsin

qorunması və onun geniş kütlələrə tanıdılması istiqamətindəki əhəmiyyətini göstərir. Bu cür tədbirlər həm də ekoturizmin təbliği və təbiətə qarşı daha məsuliyyətli yanaşma formalaşdırmaq üçün vacibdir. "Qobustanda üç ildən-bir Dədə Qorqud törənləri, Muğanda iki ildən-bir Koroğlu idman oyunları, Gəncədə Nizami günləri, Naxçıvanda, Əshabi-Kəf din mərkəzində "Qafqazda İslam" mövzusunda beynəlxalq elmi məşvərət, Dərbənddə Narınqala açıq səma teatrında tarixi tamaşalar festivalı, Şamaxıda Sabir günləri, Qazaxda Molla Pənah Vaqif və Səməd Vurğun günləri, Şuşada Vaqif, Natəvan və Cabbar Qaryağdıoğlu şeir, musiqi məclisləri, Lənkəranda rəqs yarışı, Mərdəkanda Sergey Yesenini anma günü, Təbrizdə Şəhriyar həftəsi, Ərdəbildə Xətai simpoziumu, Marağada muğam gecələri, Tovuzda, Salyanda, Tufarqanda aşıq deyişmələri..." [2, səh.11].

Anarın "Ağ qoç, qara qoç" əsərindəki təbiətə münasibət, həmçinin Qarabağ münaqişəsinin ekoloji təsirləri ilə birbaşa əlaqələndirilə bilər. Əsərdəki Qarabağ hadisələri, təbiətin və ətraf mühitin yaşadığı dağıntıları təmsil edir. Qarabağda gedən döyüşlər yalnız insanların həyatını deyil, həm də dağları, çayları, yaylaları və qədim abidələrə ziyan vermişdir. Bu bölgələr uzun illər boyu müharibənin təsiri altında qalmışdır. Qarabağdakı dəyişən coğrafiya, təbii resursların itirilməsi, torpaqların və ekosistemlərin məhv olması, bəlkə də ən bariz ekoloji dağıntılarla nəticələnmişdir. "Uzaq illərin qanlı Qarabağ hadisələri, ölkənin ovaxtkı ağır iqtisadi durumu indi yalnız xatirələr aləmində qalmışdı" [2, səh.8].

Məlum olduğu kimi, 1992-ci ildə erməni silahlı qüvvələri tərəfindən işğal olunan Şuşa şəhəri 2020-ci il noyabrın 8-də Azərbaycan ordusu tərəfindən azad edilmişdir. Şuşanın işğaldan azad olunması təkcə hərbi-siyasi yox, həm də mədəni və ekoloji baxımdan əhəmiyyətli hadisədir. Çünki bu torpaq həm təbii gözəlliyi, həm tarixi-memarlıq irsi, həm də Azərbaycan mədəniyyətində tutduğu yer baxımından unikal dəyərə malikdir. İşğaldan sonra Şuşada genişmiqyaslı bərpa və abadlıq işlərinə başlanmış, təbiətin bərpası, yaşıl ərazilərin qorunması və ekoturizm potensialının inkişafı istiqamətində ciddi addımlar atılmışdır. Bu gün Şuşa "Azərbaycanın mədəniyyət paytaxtı", eyni zamanda ekoturizm mərkəzi kimi yenidən canlandırılır. Şəhərdə keçirilən "Xarıbülbül" musiqi festivalı, "Vaqif poeziya günləri" kimi tədbirlər həm milli ruhun, həm də mədəni ekosistemin dirçəlişini göstərir.

"Qarabağ demişkən, Məliyin yadına dünən dünən oğlunun Şuşadan telefon etməsi düşdü. Beyrək Şuşada Cıdır düzündən Topxana meşəsinə çəkilən funikulyorun qurulmasına rəhbətlik edirdi. Dünən Məlik telefonla inşaatın nə yerdə olduğunu soruşduqda Beyrək Cıdır düzü tərəfdən Kirsdən Qırx pilləkənə qədər, Topxana tərəfdən İbrahim xanın sığnağna qədər hazırdır, - dedi, - indi iki tərəfi birləşdirmək qalıb, o da bir aya bitər. Sağ olsun mingəçevirlilər, elə yaraşıqlı vaqoncuqlar istehsal ediblər ki, iki göz istəyir tamaşasına. Odur ki, yayda İsa bulağı dincərliyinə gələndə Qarqarın üstündən funikulyorla keçəcəksiniz" [2, səh. 20].

“Qafqaz-tur” şirkəti Qara dəniz sahillərindən Xəzər sahillərinə, Neft daşlarında Bakurianiyə, Elbrusdan, Teberdadan, Dambaydan Göyçə gölünə, Dilicana uzanan yollarla turistlərə bir aylıq rahat və xoş səyahət təklif edirdi. Turistlərə yadigar-suvenirlər kimi Qubaçı ustaların düzəltdiyi metal döymələr, Quba xalçaları, Lahıc misgərlərinin məmulatı, Basqal kəlağayıları, Gürcüstan çaxırları, erməni konyakları hədiyyə edilirdi” [2, səh.15].

“Otel otağı” Anarın nisbətən sonrakı dövr əsərlərindən biridir və onun psixoloji nəsr sahəsindəki ustalığını nümayiş etdirən nümunələrdən sayılır. “Otel otağı” Anarın yaradıcılığında müasir insanın mənəvi vəziyyətini, vətənə və keçmişə bağlılığını, daxili harmoniyanın itməsi və ya axtarılması problemini bədii dillə əks etdirən güclü psixoloji əsərdir. Əsər tənha insanın daxili monoloqları, nostalgiya, doğmalıq və yadlıq, keçmiş və bu günün təzadları üzərində qurulmuşdur.

Əsərin əsas hissəsi Türkiyədə bir otel otağında baş verir. Baş qəhrəman — azərbaycanlı kişi — Kərim Əsgəroğlu bu otel otağında tək qalaraq, keçmişini, ailəsini, vətənini, doğma Şuşa şəhərini xatırlayır. Bu məkan onun daxili səyahətinə, özünüdərk prosesinə çevrilir. Anarın “Otel otağı” povesti, zahirən şəxsi münasibətlər və insan psixologiyası üzərində qurulsa da, dərin qatlarda urbanizasiya, təbiətdən uzaqlaşma və insanın müasir yaşayış tərzindəki yadlaşmasını da əks etdirir. Bu baxımdan povest ekoloji və ekoturizm yönümlü tədqiqat üçün maraqlı imkanlar yaradır. Povestdəki hadisələr əsasən otel otağında baş verir – bu məkan müasir dünyanın təmsilçisi olaraq təqdim olunur. Otel otağı – adama aid olmayan, kimliyini itirmiş, şəxsiyyətsiz bir məkandır. Burada insan təbiətdən uzaq, dörd divar arasında qapanmış vəziyyətdədir. Bu, bir növ insanın təbii həyat tərzindən uzaq düşməsinin simvoludur. Anarın bu məkana verdiyi soyuqluq, mexaniki atmosfer təsviri, ətraf aləmin təbiilikdən uzaq olduğunu göstərir. Əsərdə qəhrəmanın daxili monoloqları, keçmiş xatirələri və romantik duyğuları fonunda təbiətə olan nostalji hissi sezilir. Müəllif təbiəti bir arxa fon kimi deyil, itirilmiş mənəvi dəyər kimi təqdim edir. Bu, Anarın digər əsərlərində də müşahidə edilən bir tendensiyadır: insan texnoloji tərəqqi və urbanizm içində fiziki olaraq yaşasa da, mənəvi baxımdan təbiətlə əlaqəni itirib və bu itki onu ruhən boşaldıb. Anarın bu povestində birbaşa “ekoturizm” anlayışı işlənməsə də, dolayısı ilə turizm mədəniyyətinə, insanın müvəqqəti məkanlarda yaşaması və bu məkanlara yad qalması kimi məqamlar işlənir. Otel otağında qalmaq, insanın təbiətlə harmoniyada deyil, təcrid olunmuş şəkildə yaşamasına işarədir. Ekoturizmin mahiyyəti – insanın təbiətə qayıtması, onunla harmoniyada olması ideyası – burada əksinə, insanın təbiətdən uzaq düşməsinin acı nəticəsi kimi təqdim olunur. “Otel otağı” povestində qəhrəmanın keçmişə – Şuşa ilə bağlı xatirələrinə dönüşü, Anarın ekoloji və milli yaddaş kontekstində toxunduğu mühüm məqamlardan biridir. Şuşa burada təkcə coğrafi bir məkan deyil, həm də təbii gözəlliyin, səmimi insan münasibətlərinin, itirilmiş harmoniyanın və milli-mədəni kimliyin simvolu kimi təqdim olunur. Qəhrəmanın təsvirlərində Şuşa, uca dağlar,

təmiz hava, gözəl mənzərə, sərin bulaqlar və dinc həyat tərzi ilə xatırlanır. Bu da Anarın təbiətə olan duyğusal münasibətini əks etdirir. Şuşa burada bir növ ekoloji ideal kimi təqdim olunur – insanın ruhən dinclik tapdığı, təbiətlə harmoniyada yaşadığı bir yer kimi. “Bu topa-topa , didik-didik duman da Şuşanın dumanıydı və bu duman olmasaydı, o tayda İbrahim xanın sığnağını da görəcəkdi. Bu duman çəkiləndən sonar Qırx pilləkəni də tapacaqdı və pillə-pillə dərənin dibinə düşüb Daşaltının köpüklü suyundan içəcəkdi. İsa bulağının da suyundan içəcəkdi, İsa bulağından yuxarı Süleyman bulağı da vardı və İsa bulağının dadı başqa idi – Süleyman bulağınınkı başqa. Turşsu da vardı. Şirlan da. Şuşa bulaqlarını bir-bir xatırlamağa başladı: adlarını da, dadlarını da – Saxsı bulaq, Yastı bulaq, Çarx bulaq, Saxsı bulaq” [3, səh.255]. "Dad yaddaşıyla, qoxu yaddaşıyla bərabər uşaqlıq çağının ayrı-ayrı səhnələri, mənzərələri, sifətləri də bir-bir xəyalında canlanırdı. ...İstisuda üç yerdə su püskürüb yerdən çıxırdı, amma bu su yoldakı bulaqların suyu kimi soyuq, sərin deyildi, istiydi, hərarətiylə, tərkibiylə şəfalı idi... indi buraların yer adları - sanki kimsə qulağına bircə-bircə pıçıldayırmış kimi - yaddaşında səslənirdi: Yağlı bulaq, Qızıl qaya, Keçili dağı, Pəri çınqılı, Ayğır qayası, Şiş qaya, Daşlı yurd, Kotan qayası, Eyvazlı dağı, Novlu bulaq. İndi bütün bu yerlər emənilərin əlindəydi" [3, səh.254].

Anarın ədəbi irsində Qarabağ, xüsusilə Şuşa, onun milli-mədəni kimliyinin və estetik dünyasının ayrılmaz parçasıdır. Bu əsərdə (“Otel otağı”nda – A.Q.) “Anarın qələmini dindirən dərd isə bütün xalqın dərdiydi. 1993-1994-cü illərdə çap olunan “Otel otağı” əsəri ilə yazıçı bəlkə də, öz təxminlərinin fövqündə duracaq bir əsər yaratdığının fərqində deyildi. Gözəlliyi dillər əzbəri olan Şuşanın yad əllərdə çırpına bilməyəcək qədər cəsarətini itirdiyini, məğlub olmağa alışmayan bu xalqın Qarabağın ürəyini itirməklə barışa bilmədiyini təsvir edir. Bu aspektdən baxdıqda, yazıçının əsərdə qoyduğu problemin nə qədər ali duyğuları təcəssüm etdirməyə xidmət etdiyi anlaşılır” [4, səh. 96].

Bu torpaq, onun əsərlərində yalnız coğrafi məkan kimi deyil, həm də xalqın milli yaddaşının, mənəvi dirçəlişinin və təbiətlə ahəngdar yaşantının simvolu kimi təsvir olunur. “Otel otağı” povestində qəhrəmanın Şuşaya dair xatirələri təkcə fərdi nostaljini deyil, həm də millətimizin təbiət və vətən sevgisinin dərin ifadəsini əks etdirir. Anarın dediyi kimi: “Özüm də bilmirəm Şuşanı niyə bu qədər sevirəm. Burda doğulmamışam, burda böyüməmişəm, əslim-nəslim bu şəhərdən deyil, qohum-əqrabam burda yaşamır. Söz yox, vətənin hər qarışı, hər bucağı əzizdir, müqəddəsdir, amma Şuşa elə bir yerdir ki, imkanım olsaydı bütün ömrümü burda keçirərdim və vəsiyyət də edərdim ki, öləndə məni burda basdırsınlar" [1, səh. 2].

1992-ci ildə işğal altında qalan Şuşa 2020-ci ildə Azərbaycanın rəşadətli ordusu tərəfindən azad edildikdən sonra burada həm tarixi-mədəni irsin, həm də təbii ekosistemin bərpası istiqamətində mühüm addımlar atılmışdır. Şuşanın işğaldan azad olunması yalnız siyasi və hərbi zəfər kimi deyil, həm də milli kimliyin, təbiətə bağlılığın və mədəniyyətin yenidən canlanması kimi qiymətləndirilir. Şuşa bu gün

bərpa və inkişaf mərhələsindədir, burada abadlıq işləri ilə yanaşı, ekoloji tarazlığın bərpası və ekoturizmin inkişafı xüsusi önəm daşıyır. Azərbaycanın mədəniyyət paytaxtı kimi təqdim olunan şəhərdə keçirilən müxtəlif festivallar və tədbirlər milli ruhu yüksəldir, təbiətə qayğı və onun qorunması ideyasını təbliğ edir. Anarın əsərlərindəki Şuşa təsvirləri ilə bu günün real bərpa prosesləri arasında ahəng diqqət çəkir. Əsərdə qəhrəmanın təbiətlə və vətənlə bağlı olan duyğusal bağlılığı, günümüzdə milli qələbə və bərpa ruhu ilə öz real əksini tapır. Bu baxımdan Anarın bədii mətni həm milli-mənəvi, həm də ekoloji idealların ifadəsinə çevrilir. Beləliklə, Anarın Qarabağa olan dərin bağlılığı və "Otel otağı"nda, "Ağ qoç, Qara qoç"da toxunduğu təbiət və ruhsal bağlılıq mövzuları, Şuşanın işğaldan azad edilməsindən sonra yaranan reallıqla uzlaşır və milli-ədəbiyyat sahəsində ekoloji və mədəni yenilənmənin mühüm göstəricisinə çevrilir. Anarın bədii yaradıcılığı Azərbaycan ədəbiyyatında təkcə fəlsəfi və psixoloji dərinliyi ilə deyil, həm də sosial, mədəni və ekoloji məsələlərə həssas münasibəti ilə seçilir. "Ağ qoç, Qara qoç" povestində mifoloji obrazlar və təbiət simvolları vasitəsilə insan və təbiət münasibətləri, milli-mənəvi dəyərlərlə ekoloji tarazlıq arasındakı əlaqə ön plana çıxarılır. Bu əsərdə təbiət, xalqın həyat tərzi və inancları ilə vəhdət təşkil edən canlı bir sistem kimi təqdim olunur. "Otel otağı" povestində isə müəllif müasir insanın urbanizasiya nəticəsində təbiətdən uzaqlaşmasını, yadlaşmasını və bu səbəbdən yaşadığı mənəvi boşluğu ustalıqla əks etdirir. Otel otağının dar, süni və soyuq atmosferi fonunda qəhrəmanın Şuşaya dair xatirələri — təmiz hava, təbii gözəlliklər və mənəvi rahatlıq motivləri — oxucuda təbiətə qayıdış ehtiyacını oyadır. Bu, Anarın ekoloji düşüncəsinin və dolayısı ilə ekoturizmin fəlsəfəsinə yaxın baxışlarının ifadəsidir.

Hər iki əsərin süjetində Qarabağ təbiəti sadəcə arxa plan deyil, insanın varlığı ilə birbaşa bağlı olan canlı bir mahiyyət kimi təqdim olunur. Yazıçının doğma təbiətə olan estetik və mənəvi münasibəti, onun həm ekoloji şüurun formalaşmasına, həm də bədii, milli-mədəni yaddaşın qorunmasına verdiyi önəmi göstərir. Bu baxımdan Anar yaradıcılığı təkcə bədii-estetik deyil, həm də ekoloji-mədəni dəyər daşıyan bir mənbə kimi tədqiq olunmağa layiqdir.

**Ədəbiyyat**

1. Akimova E. Anarın əsərlərində Şuşa – etibarlı yaddaş mətnləri kimi. Ədəbiyyat qəzeti.- 2022.- 10 sentyabr.- S. 2.
2. Anar. Ağ qoç, qara qoç (Utopik və antiutopik nağıllar). Qanun nəşriyyatı, Bakı, 2022, 144 səh.
3. Anar. Əsərlər. IV cild, Nurlan, Bakı, 2004, 503 səh.
4. Aslanova C. Anarın nəsrində Qarabağ nisgili. Qədim Diyar Beynəlxalq onlayn elmi jurnal. Cild: 6; Sayı: 4 / 95-98

**Rəyçi: Filologiya elmləri doktoru, professor Rüstəm Kamal**